**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BEYNƏLXALQ TİCARƏTİN MÜASİR XÜSUSİYYƏTLƏRİ VƏ AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5310.01- Dünya iqtisadiyyatı |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **Jalə Bayram qızı Dadaşova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI - 2021**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Dünya iqtisadiyyatı" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**İrşad Abdul oğlu Kərimli**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Elşən Mahmud oğlu Hacızadə**

iqtisad elmləri namizədi, dosent
**Müzəffər Qulu oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Ümmühəbibə Məhəmmədtağı qızı Qələndərova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Əməkdar elm xadimi
iqtisad elmləri doktoru, professor,
**Yadulla Həmdulla oğlu Həsənli**

____________
imza

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

____________
imza

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, dosent
**Müşfiq Yelmar oğlu Quliyev**

________________
imza

# G İ R İ Ş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya ölkələri arasında iqtisadi əlaqələr, ilk növbədə xarici ticarət formasında təşəkkül tapsa da, öz inkişafının sonrakı mərhələlərində bu münasibətlər sistemi daha da mürəkkəbləşərək beynəlxalq ticarət sferasında inkişaf etməkdədir. Bu mənada ölkələrarası əlaqələrin daha geniş yayılmış və inkişaf etmiş forması kimi beynəlxalq ticarət sürətlə genişlənir, onun həcmi və xüsusi çəkisi daimi artır.

Müasir beynəlxalq ticarət təcrübəsində onun spesifik xüsusiyyətlərinin beynəlxalq əmək bölgüsünün dərinləşən istiqamətlərindən, hər şeydən əvvəl isə beynəlxalq ixtisaslaşma və kooperasiyalaşmadan irəli gəlməsi hiss olunur. Belə ki, dünyanın bu və ya digər ölkələrindən biri istehsal sahələrində hər hansı bir mal qrupunun və yaxud növlərinin, komplektləşdirici hissələrin istehsalı üzrə ixtisaslaşmışsa və bu ixtisaslaşma daim dərinləşməyə doğru istiqamətlənmişsə, həmin ölkə beynəlxalq ticarət əlaqələrində daha güclü mövqe tuta bilər. Analoji proseslər beynəlxalq ticarətin müasir xüsusiyyətlərinin öyrənilməsini, həmin xüsusiyyətlərdən irəli gələn problemlərin aşkara çıxarılmasını, onların həlli yollarının tapılmasını ön sıraya çıxarır, xüsusi araşdırma və tədqiqat tələb edir. Bu mənada dissertasiyanın mövzusu və onun ətrafında aparılan tədqiqatlar xüsusi aktuallıq kəsb edir.

Təsadüfi deyildir ki, 06 dekabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş “Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə Azərbaycanın xarici ticarət tərəfdaşları olan ölkələrlə yeni istiqamətdə əlaqələr qurmağın zərurəti qeyd edilir. İlk növbədə xarici iqtisadi əlaqələrin strukturu digər bölmələrlə müqayisədə ticarət bölməsinin az gəlirli xarici bazarlara nisbətən daha yüksək gəlirli xarici bazarların daha üstün artımı hesabına balanslaşdırmağı qarşıya məqsəd qoyulmuş və konkret hədəflər müəyyənləşdirilmişdir.

Beynəlxalq ticarətin müasir xüsusiyyətlərini xarakterizə edərkən məlum olur ki, ölkələrin xarici bazar subyektləri beynəlxalq ticarətin standart təsnifatının nomenklaturasında göstərilmiş malların və xidmətlərin ticarətinə üstünlük vermələrinə baxmayaraq, bəzən elə ölkələr olur ki, həmin üstünlüyü başqa mal və xidmət növlərinə ver-

məli olurlar. İnkişaf etmiş ölkələrin, xüsusən də sənaye ölkələrinin beynəlxalq ticarət əməliyyatlarında son sənaye və hazır məhsullar ixracına daha çox üstünlük verməsi nəticəsində həmin ölkələrdən xammal və enerji daşıyıcıları ixracı nisbətən daha aşağı olur. Son illərin təcrübəsi göstərir ki, beynəlxalq ticarət dövriyyəsinin strukturu əhəmiyyətli şəkildə dəyişməkdədir. Belə ki, ixrac əməliyyatlarında xammal, enerji daşıyıcıları və ərzağın xüsusi çəkisi azalır, son sənaye mallarının, hazır məhsulların və yarımfabrikatların xüsusi çəkisi isə artmaqdadır.

Beynəlxalq ticarətin müasir xüsusiyyətlərini daha dərindən öyrənmək üçün onun strukturunu yalnız mal qrupları üzrə deyil, daha çox qrupdaxili mal növləri üzrə də öyrənmək lazım gəlir. Bu işdə qrupdaxili malların daxili cəhətlərini öyrənmək istiqamətində elektron ticarət müstəsna rol oynaya bilir. Bu ticarət xarici ticarət əlaqələrinə girən şirkətlərin, firmaların istehsal gücünü artırır, onların xarici bazarlara çıxardığı malların və xidmətlərin rəqabət qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərə bilir.

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi siyasət xarici ticarət əlaqələrinin tərəfdaş dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin qurulmasına və inkişaf etdirilməsinə, həmin münasibətlərdən ölkəmizin beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi, eləcə də daxili sabitliyin təmin edilməsi naminə səmərəli istifadə məqsədlərinə xidmət edir. Bu baxımdan qeyd oluna bilər ki, xarici ticarətin inkişafının müasir meyillərinin ölkənin sosial-iqtisadi inkişafına təsirinin müxtəlif aspektlərinin araşdırılması daim öz aktuallığını saxlayan mühüm problemlərdən biri kimi qəbul edilir.

Bütün yuxarıda göstərilən müddəalara istinadən demək olar ki, müasir dövrdə Azərbaycanın xarici ticarət siyasətinin beynəlxalq ticarətin inkişafı istiqamətlərinə uyğun olaraq işlənilməsi və həyata keçirilməsinin mühüm aspektlərinin araşdırılması nəzəri və praktiki cəhətdən kifayət qədər aktualdır.

Beynəlxalq ticarətin müasir xüsusiyyətlərinin öyrənilməsi ilə əlaqədar qarşıya çıxan problemlərin aktuallığı onun praktiki əhəmiyyətinə dair yerli və xarici iqtisadçı alimlərin diqqətini özünə cəlb etməkdədir. Bu mənada mövzu çərçivəsində xarici və yerli

iqtisadçı alimlərin tədqiqat işləri sistemləşdirilərək kompleks şəkildə öyrənilmiş, onların tədqiqat işlərində öz ifadəsini tapan bir çox konseptual fikirlərdən istifadə olunmuşdur. Beynəxalq ticarət sisteminə təsir edən amillərin kəmiyyət və keyfiyyətcə sürətlə artması nəticəsində malların və xidmətlərin mübadiləsi sahəsində ciddi struktur dəyişikliyinin araşdırılması klassik və müasir iqtisadçı alimlərdən A.Smit, D.Rikardo, C.Mill, A.Marşal, P.Kruqman, Z.Samuelson, H.Seyidoğlu, P.Vernon və digərləri tərəfindən yerinə yetirilmişdir. Mövzunun bu və ya digər cəhətləri üzrə tədqiqat aparan MDB alimlərindən İ.N.Qerçikovanı, V.K.Lomakini, K.P.Faminskini, R.İ.Xasbulatovu, A.İ.Paqorletskini, V.P.Kolesovanı və.s göstərmək olar.

Azərbaycanın xarici ticarət əlaqələrinin öyrənilməsində ölkənin xarici ticarət dövriyyəsinin təkmilləşdirilməsi istiqamətində Azərbaycan iqtisadçılarından Z.Ə.Səmədzadə, Ə.C.Muradov, N.M.İmanov, G.Ə.Gənciyev, Z.F.Məmmədov, İ.A.Kərimli, Ə.İ.Bayramov, Ş.H.Hacıyev, R.T.Həsənov, D.Ə.Vəliyev, A.Ş.Şəkərəliyev, Ə.Q.Əliryazev, Ü.Q.Əliyev və digərlərinin apardıqları tədqiqatları qeyd etmək olar. Daha konkret olaraq Azərbaycanın xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi sahəsində aparılan tədqiqatlara G.Ə.Gənciyevin, beynəlxalq ticarət müstəvisində Azərbaycanın xarici ticarət əlaqələrinin təkmilləşdirilməsinə dair Ə.C.Muradovun, İ.A.Kərimlinin, Ş.H.Hacıyevin, E.M.Hacızadənin tədqiqat işlərini misal göstərmək olar.

Konkret olaraq beynəlxalq ticarətin müasir problemləri ilə əlaqədar Azərbaycanın xarici ticarət dövriyyəsinin öyrənilməsi sahəsində ölkənin iqtisadçı alimləri də az və ya çox dərəcədə tədqiqatlar aparmışlar. Belə tədqiqatlarda daha çox xarici ticarət dövriyyəsinin tənzimlənməsinə, tənzimlənmə üsullarından istifadənin bu və ya digər yollarının tapılmasına xüsusi diqqət vermişlər. Lakin qeyd etməyi lazım bilirik ki, beynəlxalq ticarətin müasir xüsusiyyətlərinin Azərbaycan reallığı ilə qarşılıqlı əlaqəsinin öyrənilməsi vacib məsələlərdən biridir. Azərbaycanın iqtisadçı alimlərinin apardıqları araşdırmalarda beynəlxalq ticarətin doğurduğu müasir problemlərin həlli müstəvisində ölkənin xarici ticarət əlaqələrinin təkmilləşdirilməsi istiqamətində kompleks tədqiqatlar aparmağa ehtiyac var. Bütün bunlar dissertasiyada tədqiq olunan

problemlərin həllinin yüksək elmi-təcrübi əhəmiyyətini qarşıya çıxarır. Bu isə öz növbəsində dissertasiyada aparılan tədqiqatın məqsəd və vəzifələrini müəyyən etməyi tələb edir.

**Tədqiqatın obyekti və predmeti:**Tədqiqat işinin obyekti kimi beynəlxalq ticarətin müasir xüsusiyyətləri ilə əlaqədar Azərbaycanın xarici ticarət əlaqələrinin inkişaf istiqamətləri seçilmişdir. Tədqiqatın predmetini beynəlxalq ticarətin müasir xüsusiyyətləri kontekstində Azərbaycanın xarici ticarət əlaqələrində formalaşan iqtisadi münasibətlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Beynəlxalq ticarətin müasir xüsusiyyətlərini nəzərə almaqla onun formalaşması və inkişafının nəzəri və praktiki cəhətlərini sistemli araşdırmaq, Azərbaycanın xarici ticarət əlaqələrinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi əsasında beynəlxalq ticarət əlaqələrinə inteqrasiya olunması imkanları və reallaşdırılması istiqamətində müvafiq təklif və tövsiyələr işləyib hazırlamaqdır.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- beynəlxalq ticarətin müasir xüsusiyyətlərinin formalaşmasının nəzəri-metodoloji əsaslarını tədqiq etmək;
- xarici ticarət əlaqələrində idxal-ixrac əməliyyatlarına beynəlxalq ticarətin müasir problemlərinin təsirini müəyyənləşdirmək;
- Azərbaycanın xarici ticarət əlaqələrinin strukturu və dinamikasını sistemli təhlil edərək qiymətləndirmək;
- Azərbaycanın xarici ticarət siyasətinin beynəlxalq ticarətin müasir xüsusiyyətlərinə uyğunlaşdırılması ilə bağlı müvafiq təkliflər hazırlamaq;
- Azərbaycanın xarici ticarət əlaqələrinin müasir vəziyyətini nəzərə almaqla onun inkişaf perspektivlərini müəyyənləşdirmək;

**Tədqiqat metodları.** Tədqiqat prosesində elmi abstraksiya, qruplaşdırma, təhlil-sintez, induksiya-deduksiya, müqayisəli və sistemli təhlil, iqtisadi-riyazi üsullar və rasional yanaşma metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Tədqiqat mövzusuna uyğun olaraq, beynəlxalq ticarətin müasir xüsusiyyətlərinə dair mövcud elmi-nəzəri müddəaların və

konseptual fikirlərin sistemləşdirilməsi;

- Beynəlxalq ticarətin inkişafı, coğrafi və əmtəə strukturunun dəyişməsi meyillərinin təhlili.

- Azərbaycanın xarici ticarət sistemində mövcud iqtisadi asılılıqların ekonometrik qiymətləndirilməsinin nəticələri;

- Azərbaycanın xarici ticarət dövriyyəsində idxalla ixracın struktur tərkibi ilə yanaşı ixracyönümlü məhsullar buraxılışının struktur tərkibi ilə idxal olunan məhsulların əvəzlənməsinin struktur tərkibi arasında balanslaşdırmanın yolları və üsullarına dair əsaslandırmalar;

- Beynəlxalq ticarət standartlarının Azərbaycanın xarici ticarət əlaqələrinə tətbiqi istiqamətlərinin əsaslandırılması;

- Xarici ticarət əlaqələrinin genişləndirilməsi müstəvisində ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətləri;

**Tədqiqatın elmi yeniliyi.** Beynəlxalq ticarətin müasir xüsusiyyətlərini sistemli öyrənməklə ölkənin xarici ticarət əlaqələrinin müasir vəziyyətini təhlil edib qiymətləndirmək əsasında mövcud problemləri üzə çıxarmaq, onların aradan qaldırılması və Azərbaycanın beynəlxalq ticarət əlaqələrinə inteqrasiyası üzrə konkret təkliflər və tövsiyələr hazırlamaq, onları elmi və təcrübi cəhətdən əsaslandırmaqdır.

Dissertasiya tədqiqatında qarşıya çıxan problemlərin həlli üzrə əldə olunmuş elmi yeniliklərə aşağıdakılar aid edilə bilər:

- beynəlxalq ticarətin konseptual əsasları ilə bağlı müxtəlif yanaşmaların müqayisəli təhlili aparılmış, mövzu ilə əlaqələnən elmi müddəalar sistemləşdirilərək dəqiqləşdirilmişdir;

- qloballaşan dünyada beynəlxalq ticarətin müasir xüsusiyyətləri və problemləri, onları doğuran səbəblər aşkara çıxarılmış, eləcə də problemlərin həlli metodoloji baxımdan əsaslandırılmışdır.

- beynəlxalq ticarətin əmtəə və coğrafi strukturunun dəyişməsi meyilləri, beynəlxalq ticarət əlaqələrində Azərbaycanın iştirakının mövcud vəziyyəti və xarici ticarət əlaqələrinin struktur dəyişikliyi kompleks şəkildə təhlil edilərək qiymətləndirilmiş, habelə təkmilləşdirilməsi yolları göstərilmişdir.

- Azərbaycanın xarici ticarət sisteminə təsir göstərən əsas göstəricilərin zamana görə dəyişməsini ifadə edən məlumatlar

əsasında ekonometrik təhlili aparılaraq müəyyən olundu ki, ölkə üzrə idxalin 1 milyon dollar məbləğində artması ixracı 2,44 mln dollar artırır, ÜDM üzrə bu artım 0,37 mln dollar, daxili investisiyalar üzrə 1,59 mln dollar, xarici investisiyalar üzrə isə 2,15 mln dollar təşkil edir; Həmçinin, ÜDM-in 1 vahid artması ixracı 0,63 vahid, idxalın 1 vahid artması ixracı 2,65 vahid, daxili investisiyaların 1 vahid artması isə ixracı 2,92 vahid artırır.

- Azərbaycanın xarici ticarət dövriyyəsinin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsinə əsaslanaraq dissertasiyada aparılan tədqiqatlar üzrə müvafiq təklif və tövsiyələr işlənib hazırlanmışdır;
- Azərbaycanın beynəlxalq ticarət əlaqələrinə inteqrasiya olunmasının gücləndirilməsi imkanları araşdırılaraq aşkara çıxarılmış, xarici ticarət dövriyyəsində ixracyönümlü məhsulların səviyyəsinin yüksəldilməsi yolları, habelə beynəlxalq ticarət standartlarının respublikada tətbiqinin müasir istiqamətləri əsaslandırılmışdır;
- Azərbaycanın iqtisadi təhlükəsizliyinin daha da möhkəmləndirilməsi məqsədilə idxaldan asılılıq səviyyəsini aşağı salmaq istiqamətində təklif və tövsiyyələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada aparılan tədqiqatın nəzəri əhəmiyyəti beynəlxalq ticarətin müasir xüsusiyyətlərini ayrı-ayrı ölkələrin xarici ticarət əlaqələrinə təsirinin öyrənilməsi istiqamətində aparılan araşdırmalar və həmin sahədə mövcud dünya təcrübəsinin Azərbaycanın xarici ticarət siyasətinə uyğun olaraq tədqiq imkanlarının konseptual cəhətdən əsaslandırılmasında öz ifadəsini tapmışdır. Tədqiqat zamanı əldə olunan nəticə və irəli sürülən təkliflər beynəlxalq ticarətin müasir xüsusiyyətlərinin öyrənilməsi istiqamətində Azərbaycanda xarici iqtisadi əlaqələrlə məşğul olan dövlət və qeyri-dövlət strukturları tərəfindən istifadə edilə bilər. Eyni zamanda dissertasiyada irəli sürülən konkret təkliflər Azərbaycanın xarici ticarət əlaqələrinin, xüsusən də onun xarici ticarət dövriyyəsinin liberallaşdırılmasında, ixrac malları və xidmətləri istehsalı ilə məşğul olan xarici bazar subyektləri, eyni zamanda beynəlxalq iqtisadiyyat sektoru üçün kadr hazırlayan ali məktəblərin bakalavr və magistr səviyyələrində uyğun tədris prosesində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işi ilə bağlı 4-ü xaricdə

olmaqla, 8 məqalə, 7 tezis çap edilmişdir.

Dissertasiyada aparılan tədqiqatın əsas konsepsiyası və bununla da aparılan təhlil və qiymətləndirmələrdən əldə olunan nəticələr Respublika və Beynəlxalq əhəmiyyətli elmi-təcrübi konfranslarda müzakirə olunmuş və müsbət qiymətləndirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Azərittifaq Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiyanın strukturu tədqiqatın məqsədi və qarşıya qoyulmuş vəzifələrilə müəyyən olunur. Dissertasiya işi giriş (14699 işarə), üç fəsil (I fəsil – 76502 işarə, II fəsil – 86735 işarə, III fəsil – 62768 işarə), nəticə (11327 işarə), Azərbaycan, rus və ingilis dillərində olan 125 adda ədəbiyyat siyahısından və qəbul edilmiş standartlara uyğun 147 səhifə (251941 işarə) kompüter yazısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU.

**1. Tədqiqat mövzusuna uyğun olaraq, beynəlxalq ticarətin müasir xüsusiyyətlərinə dair mövcud elmi-nəzəri müddəaların və konseptual fikirlərin sistemləşdirilməsi;**

Beynəlxalq ticarətin çoxillik tarixi təcrübəsinin olması, bu sahədə müxtəlif iddialar, konseptual fikirlər, araşdırma və tədqiqatların mövcudluğu beynəlxalq ticarətdə iştirak edən ölkələrin və ölkə qruplarının kifayət qədər fayda götürmələri ilə əlaqədardır. Zaman keçdikcə çoxsaylı konseptual fikirlər və tədqiqatlar aparılmış, beynəlxalq ticarətin daha konkret elmi nəzəriyyələri olmuş və real təcrübədə özünü doğrultmuşdur. Bu nəzəriyyələr ən ümumi şəkildə mövcud şəraitə uyğunlaşaraq beynəlxalq ticarətin inkişaf qanunauyğunluqlarının əsasında dayanmaqdadır.

İstər bizə məlum olan A.Smitin mütləq üstünlük nəzəriyyəsi və istərsə də D.Rikardonun müqayisəli üstünlüklər nəzəriyyəsi baxımından müasir beynəlxalq ticarətin xüsusiyyətlərinə yanaşdıqda hər iki nəzəriyyənin fərqli cəhətləri deyil, onların oxşar cəhətlərinin doğurduğu şəraiti, yəni beynəlxalq ticarət əlaqələrinin yaratdığı spesifik faktlardan aydın görə bilərik. Həmin faktlar beynəlxalq ticarətin iqtisadi və sosial bazasının möhkəmkəndirilməsində mühüm

təsir gücünə malikdir. Real faktlardan biri belədir ki, hazırda beynəlxalq ticarətin ümumi həcmi dünyanın ümumi daxili məhsulunun (DÜDM) həcminə nisbətən sürətlə artır. Beynəlxalq ticarətin həcminin artımı və onun daha sürətli olması öz növbəsində dünya istehsalına, onun artmasına da təsir göstərərək ümumdünya təkrar istehsal prosesinin fasiləsizliyinin təmin olunmasında xüsusi əhəmiyyət daşıyır.

Beynəlxalq ticarətin müasir xüsusiyyətlərinin öyrənilməsində beynəlxalq ticarətə dair neoklassik və klassik sintez nəzəriyyələrinin bəzi müddəaları köməyə gəlir, yəni beynəlxalq ticarətin müasir problemlərinin hərtərəfli öyrənilməsinə, onların həlli yollarının tapılmasına yanaşmanı kifayət qədər asanlaşdırır. Klassik iqtisadçıların beynəlxalq ticarətə dair elmi müddəalarını daha yeni faktlar və dəlillərlə zənginləşdirən onların bir növ davamçıları olan neoklassik məktəbin nümayəndələrinin tədqiqatçılarından əldə olunan bir ortaq nəticə vardır ki, bu da ölkələr arası ticarət əlaqələrində və bu əlaqələrin maddi əsasında dayanan istehsal amillərinin sistemli nəzərə alınması, onların iqtisadi mobilliyinin uçota alınıb nəticə çıxarılmasıdır. Hər halda beynəlxalq ticarət əlaqələrinə girən ölkələr özlərinin sayından və satışa çıxarılan mal və xidmətlər qrupunun, qrupdaxili növünün və çeşidinin miqdarından asılı olmayaraq bütün tərəflərin ticarətdən fayda götürmələri labüddür.

Beynəlxalq ticarətin müasir xüsusiyyətlərinə diqqət verdikdə daha çox istehsal amillərinin təklifinə və bununla da daha çox mallar və xidmətlər təklifinə uyğun tələb amillərinin də formalaşdığını görə bilərik. Bu mənada beynəlxalq bazarlarda mal və xidmət təklifi tələbin ardınca formalaşsa da bütün hallarda həm tələbə həm də təklifə eyni səviyyədə baxmaq, hər ikisinin tarazlı inkişafına nail olmaq lazım gəlir. Bu baxımdan beynəlxalq ticarətin müasir xüsusiyyətlərinin öyrənilməsinə klassik və neoklassik nəzəriyyələrin başlıca müddəaları baxımından yanaşıldıqda məlum olur ki, ticarət kommersiya əməliyyatlarında çoxsaylı məhdudiyyətlərə və ilkin ehtimallara əməl etmək lazımdır. Buna görə XX əsrin yarısından etibarən müasir iqtisadçılar beynəlxalq ticarətin müxtəlif aspektlərini izah edən yeni faktlar və dəlillər axtarışında olmuşlar. Ənənəvi tədqiqat üsullarından kənara çıxmağa çalışanlar aşağıdakı yanaşma istiqamətlərinə üstünlük verməyə çalışırlar;

- Beynəlxalq ticarət nəzəriyyələrinin ümumi prinsiplərini inkişaf etdirmək, onları daha çox sayda mal, xidmət növlərinə, ölkələrə və istehsal amillərinə şamil etmək.

- Beynəlxalq ticarətə dair ümumi prinsiplərin düzgünlüyünü bütünlikdə şübhə altına almadan beynəlxalq ticarətin yeni problemlərini və müasir xüsusiyyətlərini klassik mövqeden tədqiq etmək, müasir iqtisadçılar klassiklər tərəfindən toxunulmayan bir çox məsələləri izah edən yeni modelləri üzərində işləmək və riyazi üsullarla sübut etmək iqtidarında olmalıdır.

- Nəhayət, nəzərdə tutulur ki, mövcud olan və özünün aktuallığını indi də saxlayan ticarət konsepsiyaları və nəzəriyyələri müasir beynəlxalq ticarəti izah etmək iqtidarında deyillər və buna görə də onlar yeni nəzəriyyələrlə əvəz edilməlidirlər (maştab effekti nəzəriyyəsi, sahədaxili beynəlxalq ticarət modeli, miqyas iqtisadiyyatı ).

Müasir beynəlxalq ticarətin xüsusiyyətlərini və problemlərinin izah edilməsi üçün bəzən sadəcə məlum olan nəzəriyyələri inkişaf etdirmək kifayət edir, lakin bəzi hallarda tamamilə yeni yanaşmalar tələb edir. Ən yeni yanaşmaların böyük hissəsi beynəlxalq ticarəti təklif baxımından izah edən nəzəriyyələri inkişaf etdirir və əsasən Smit və Rikardonun mütləq və müqayisəli üstünlüklər klassik nəzəriyyələrini və Hekşer–Olinin istehsal amillərinin nisbəti nəzəriyyəsinin müxtəlif variasiyalarını özlərində əks etdirirlər.

İstehsalın spesifik amilləri nəzəriyyəsi, Stolper-Samuelson teoremi, Rıbçınski teoremi, qarşılıqlı tələb nəzəriyyəsi, istehsal amillərinin rezervi nəzəriyyəsi, istehsal amillərinin qiymətlərinin bərabərləşdirilməsi teoremi və sair başqa nəzəriyyələri inkar etmədən onları müxtəlif istiqamətdə inkişaf etdirirlər.

## 2.Beynəlxalq ticarətin inkişafı, coğrafi və əmtəə strukturunun dəyişməsi meyillərinin təhlili.

İqtisadiyyatın və bütünlükdə ölkələr arası iqtisadi əlaqələrin elmi sistem kimi formalaşmağa başladığı dövrdən etibarən bir tərəfdən xarici ticarət digər tərəfdən isə dünya bazarının formalaşması dünya iqtisadiyyatının inkişafına həll edici təsir etmişdir. Həmin dövrlərdən başlayaraq müasir dövrə qədər beynəlxalq ticarətin dinamikasında müntəzəm dəyişikliklər baş vermişdir. Ümumiyyətlə, dünyada beynəlxalq ticarətin inkişafı, yəni dayanıqlı şəkildə artması

ikinci dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Bu da dünyada ikinci dünya müharibəsindən sonra ümumi iqtisadi fəallığa əsaslanır. Belə inkişafın əsasında beynəlxalq ticarət və dünya bazarının struktur elementləri xüsusən onların forma və norma müxtəliflikləri dərinləşməyə başlamış əmtəələrin, xidmətlərin və habelə kapital bazarının daha sürətlə inkişafı diqqəti cəlb etmişdir. Açıq iqtisadiyyatlı ölkələrin sayının tədricən artması ümumi prinsiplərə və standartlara əsaslanan qlobal ticarət sisteminin formalaşmasına gətirib çıxarmışdır.

Beynəlxalq ticarətin coğrafi quruluşu haqqında danışarkən iştirakçıların əsas təsnifatlarından birinə müraciət edilməlidir, yəni, iqtisadiyyatın inkişafı ilə coğrafi meyarı uzlaşdırılmalıdır. Burada söhbət ölkələri inkişaf etmiş, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrə bölməkdən gedir.

Beynəlxalq ticarət dövriyyəsinin dinamikasına dair aşağıdakı şəklə baxdıqda görmək olar ki, azalma baş vermişdir. İnkişaf etmiş ölkələrdə belə  azalmanın miqyası cüzi olsa da inkişaf etməkdə olan ölkələrdə bir qədər yüksək olmuşdur.

**Şəkil.1**




*Mənbə: diaqram www.imf.org saytının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Dünyanın iqtisadi gücü sayılan inkişaf etmiş sənaye ölkələrinə daxil olan ABŞ, Yaponiya və Almaniyada dünya əhalisinin 9 faizinin cəmlənməsinə baxmayaraq, bu ölkələr dünya gəlirlərinin yarısını

mənimsəyirlər. Onlar bütün ölkələrin alıcılıq qabiliyyətinin üçdə birinə nəzarət edirlər. İnkişaf etmiş ölkələrin dünya ixracındakı rolunun yüksək olması onların əsasən yüksək texnologiyalı məhsul istehsal etməsindən asılıdır. Belə texnoloji məhsullar ya digər ölkələrdə çox azdır, ya da demək olar ki, heç yoxdur. Məhz bu cəhət də İEÖ-in hərtərəfli xeyrinə gətirib çıxarır. Bu zaman yüksək texnologiyaya tələbatı olan ölkə asılı vəziyyətə düşür və İEÖ-i inhisarçı mövqe tutmağa yönləndirir.

2010-2018-ci illərdə dünya ölkələri üzrə ümumi ixrac və idxal həcminin dinamikasının təhlili göstərir ki, 2018-ci ildə həmin göstəricilərin ən yüksək kəmiyyətinə nail olunmuşdur. Dünya üzrə ixracın həcminin 2010-2014- cü illə müqayisədə 24,1 faiz artmasına baxmayaraq, 2015-2016-cı illərdə tədricən azalma baş vermiş, nəhayət 2017-ci ildə isə ixrac 2016-cı illə müqayisədə 11 faizə qədər artmışdır. Ümumdünya idxalının həcmində də demək olar ki, eyni dəyişmə meyilləri müşahidə olunmuşdur.

**Cədvə l.**

**2010-2018-ci illərdə bəzi dünya ölkələri üzrə idxal və ixracın həcmi** *(milyard ABŞ dolları ilə)*

| Ölkələr | İxrac | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
| Cəmi dünya ixracı | 15,301,0 | 18,995,0 | 16,489,0 | 16,028,7 | 17,730,0 | 19,284 |
| ABŞ | 1,277,1 | 1,623,4 | 1,501,8 | 1,453,2 | 1,546,7 | 1,665,9 |
| Çin | 1,577,8 | 2,342,3 | 2,273,5 | 2,097,6 | 2,271,7 | 2,494,2 |
| Almaniya | 1,271 | 1,511 | 1,328,5 | 1,304,8 | 1,450,2 | 1,556,7 |
| Yaponiya | 777 | 683 | 624 | 644 | 698 | 738 |
| Rusiya | 396,4 | 492,1 | 343,9 | 285,4 | 359,1 | 449 |
| İdxal | | | | | | |
| Cəmi dünya idxalı | 15,551,0 | 19,104,0 | 16,743,0 | 16,287,3 | 18,024,0 | 19,665,2 |
| ABŞ | 1,966,5 | 2,409,8 | 2,313,4 | 2,249,6 | 2,409,4 | 2,612 |
| Çin | 1,396,0 | 1,958,0 | 1,679,6 | 1,587,9 | 1,840,9 | 2,134,9 |
| Almaniya | 1,097 | 1,224 | 1,057,6 | 1,060,7 | 1,173,6 | 1,287,3 |
| Yaponiya | 823 | 822 | 625,6 | 606,9 | 671,8 | 748 |
| Rusiya | 230,0 | 282,6 | 192,8 | 182,3 | 228 | 238,1 |

***Qeyd.*** *Cədvəl www.ekonomi.gov.tr Trademap məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl məlumatlarından göründüyü kimi, 2010-2018-ci illər ərzində ABŞ dünyanın ən böyük mal idxalatçısı hesab olunur. Göründüyü kimi 2016-cı ildə ABŞ-n ixracatı əvvəlki illə müqayisədə

təqribən 3,2%, idxal da əvvəlki ilə görə 2,8 % azalmışdır. Lakin 2017-ci ildə 2016-cı ilə nisbətən ABŞ-ın idxalı 7,1 faiz artmağa doğru meyil etmişdir. Yenidən 2018- ci ildə ABŞ-n həm idxal, həm də ixrac göstəricilərində artım olmuşdur.

Müasir dövrdə əmtəənin beynəlxalq ticarətinin artım meyillərinə müəyyən amillər təsir göstərir ki, bunların arasında da aşağıdakıları göstərmək olar:

- Beynəlxalq ticarətdə əmtəə nomenklaturasının tez-tez dəyişməsi.
- Müxtəlif hissələr, elementlər və detalların mübadiləsinin artımı.
- Xammal və yanacaq ticarətinin əhəmiyyətlinin nisbətən aşağı düşməsi.
- TMK –da firmadaxili kooperasiyanın güclənməsi.
- Peyk əlaqəsi, videotexnika, müasir telekommunikasiya vasitələrinin meydana çıxması ilə əlaqədar olaraq xidmət sahəsində alıcı ilə satıcının şəxsi əlaqədən imtina etmələri.

Son dövrlərdə çox olmasa da dünya ixracında ərzaq məsulları-nın həcmi azalır. Bunu da onunla izah etmək olar ki, hər bir ölkə özünün ərzaq təhlükəsizliyini öz daxili istehsalı hesabına təmin etmək istəyir. Məhz elə bu da əmtəələrin beynəlxalq ticarətində mü-hüm struktur dəyişikliklərindən hesab olunur. Ərzaq məhsulları ilə dünya ticarətinin əsas xüsusiyyətləri ondan ibarətdir ki, burada səna-yecə inkişaf etmiş ölkələrin mövqeyi möhkəmlənir və inkişaf et-məkdə olan ölkələrin dünya təsərrüfatının aparıcı mərkəzlərindən ərzaq məhsullarına asıllığı artır. İnkişaf etmiş ölkələrin ərzaq idxalı onlarda özünütəminetmənin artması ilə əlaqədar olaraq payı azalmış-dır. Nəticədə dünya bazarında ərzağa olan tələbat nisbi azalmışdır.

Hal-hazır ki, beynəlxalq ticarət əlaqələrində Azərbaycanın iştirakının reallığı göstərir ki, milli iqtisadiyyatın son nəticəsi kimi buraxdığı malların çeşidindən asılı olmayaraq ölkəyə gətirilən xarici mallar daim artmaqdadır. Son illərdə xarici ticarət dövriyyəsində idxalın həcmi artmaqda davam edir. Bu da daxili bazarda qiymət artımına, milli istehsalın səmərəliliyinin artırılmasına mənfi təsir göstərir. Bu mənada idxalın əvəz olunması və ixracyönümlü mallar istehsalının potensial imkanları aşkara çıxarılmalıdır.

Özünün nəinki, təbii resursları və hətta iqtisadi resursları ilə zəngin olan Azərbaycan beynəlxalq ticarət əlaqələrinə girmək üçün

çox güclü ixrac potensialına malikdir, çünki yerli xammal və materiallarla zənginlik imkan verir ki, həmin xammal və materiallardan ölkənin sərhədləri daxilində son və hazır məhsullar istehsalını təşkil etsin, xarici bazazlara özünün son milli məhsulları ilə çıxış imkanı qazansın. Bu ixrac potensialını artırır, yerli resurslardan istifadənin iqtisadi səmərəliliyini yüksəldir, eyni zamanda işsizliyin qarşısını alır.

Aşağıdakı cədvəldə 2010-2018 ci illər ərzində Azərbaycanın ticarət dövriyyəsinin dinamikasını daha aydın görmək olar:

**Cədvəl 2**

**2010-2018-ci illərdə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin dinamikası (mln.doll.)**

| | 2010 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2018/2010 dəfə |
|---|---|---|---|---|---|---|---|---|
| **Ticarət dövriyyəsi** | | | | | | | | |
| **mln.doll.** | 27960,8 | 34687,9 | 31016,3 | 21945,8 | 21946,7 | 22593,6 | 30923,6 | 1,1 d. |
| **%-lə** | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | |
| **İxrac** | | | | | | | | |
| **mln.doll.** | 21360,2 | 23975,4 | 21828,6 | 12729,1 | 13457,6 | 13811,6 | 19458,6 | 0.91 d. |
| **%-lə** | 76,4 | 69,1 | 70,4 | 58,0 | 61,3 | 61,1 | 63 | |
| **İdxal** | | | | | | | | |
| **mln.doll.** | 6600,6 | 10712,5 | 9187,7 | 9216,7 | 8489,1 | 8782,0 | 11465,0 | 1,7 d. |
| **%-lə** | 23,6 | 30,9 | 29,6 | 42,0 | 38,7 | 38,9 | 37 | |
| **Saldo** | | | | | | | | |
| mln.doll. | 14 759,6 | 13 262,9 | 12 640,9 | 3 512,4 | 4 968,5 | 5 029,6 | 7993,6 | --- |

*Cədvəl "Azərbaycanın xarici ticarəti 2018", Bakı. 2018. 220 s., s.11-12, statistik məcmuəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Cədvəl məlumatlarından göründüyü kimi, 2010-2018-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsi 1,1 dəfə artmış və 27,96 mlrd. dollardan 30,92 mlrd. dollara qədər yüksəlmişdir. Bu göstəricinin kəmiyyətində ayrı-ayrı dövrlərdə nisbi sabitlik müşahidə olunmuşdur. Belə ki, 2010 və 2013-cü illərdə bu göstərici yüksəlməklə uyğun olaraq 28,0 və 34,6 mlrd. dollar təşkil etməklə nisbi artıma meyilli olmuşdur. 2014-cü ildə onun yenidən azalması qeydə alınmışdır və o, 31,0 mlrd. dollara enmişdir. Bu, ölkənin valyuta gəlirlərinin əsasən neft və neft məhsullarının ixracından daxil olması ilə əlaqədar olmuşdur. Şübhəsiz ki, neftin dünya bazar qiymətinin azalması ölkə iqtisadiyyatına və ayrı-ayrı sahələrin inkişafı göstəricilərinə öz mənfi təsirini göstərir.

Xarici ticarət dövriyyəsinin artımı Qərbi Avropa regionunda iqtisadi inkişafda daha çox ticarət aspektində özünü göstərmişdir. Bütün regionun Avropa İttifaqı ölkələrindən idxal əlaqələrinin həcmi artmışdır. Region üzrə məcmu ticarət əlaqələri üçün mənfi saldo xarakterik olmuşdur. Son illərin məlumatlarına əsasən 2000-2015 –ci illər ərzində MDB regionu dövlətləri Avropa İttifaqı dövlətləri ilə ikitərəfli ticarət əlaqələrini inkişaf etdirmişdi.

Son dövrlərdə, xarici investorların Azərbaycana axını, trans-milli korporasiyaların Azərbaycanda fəaliyyəti, xüsusilə də xarici ölkə investorlarının neft sektoruna iri həcmli investisiya yatırımlarından sonra ölkənin xarici ticarət dövriyyəsində Avropa Birliyi ölkələrinin payı artmışdır. Həmçinin son dövrdə bir sıra Asiya , Mərkəzi və Şərqi Avropa ilə ticarət əlaqələrində artım müşahidə olunmuşdur. Bu gün Azərbaycanın inkişaf etmiş sənaye ölkəsi olan ABŞ-la iqtisadi əlaqələri daha da genişlənir. Məhz ABŞ-n Xəzər bölgəsi və Cənubi Qafqazda Azərbaycanın həyata keçirtdiyi transmilli layihələrdə iştirakı xüsusi əhəmiyyətə malikdir. Bu istiqamətdə əsasən Amerikanın öz şirkətləri vasitəsilə Xəzər dənizinin təbii ehtiyatlarının mənimsənilməsi, istehsalı, digər tərəfdən təbii ehtiyatların dünya bazarına çıxarılmasını təmin etmək məqsədilə Bakı-Tibilisi-Ceyhan neft kəməri və Bakı-Tibilisi-Ərzurum qaz boru kəmərlərinin çəkilməsindəki rolu diqqəti daha çox cəlb edir. Həmçinin TRASEKA layihəsinin həyata keçirilməsində Azərbaycan xüsusi rola malikdir.

Zaman ötdükcə inkişafın səviyyəsi yüksəldikcə xarici ticarətin əmtəə strukturu da mürəkkəbləşir. Son illərdə ixracın strukturunda mal çeşidlərinin siyahısında dəyişikliklər olmuşdur. Əgər 2003-cü ildə 1218 adda mal ixrac olunurdusa, bu rəqəm 2011-ci ildə 2082-ə , 2015-ci ildə 2477-ə, 2019-cu ildə 3124-ə qədər gəlib çatmışdır.

İdxal olunan malların da siyahisında əsaslı dəyişiklər baş vermişdir. Əgər 2003- cü ildə 5266 adda mal idxal edilirdisə, 2011-ci ildə bu 6233, 2015-ci ildə isə 6231, 2019-cu ildə isə 7503 ədəd olmuşdur. İdxal olunan mallar içərisində nəqliyyat vasitələri, onların hissələri, elektro texnika avadanlıqları,quru, hava və su nəqliyyat vasitələri,mebel və onun hissələri, ərzaq malları, az qiymətli metallar, kimya məhsulları, əczaçılıq məhsulları üstünlük təşkil edir.

İxrac səbətinin gəlirliliyi Azərbaycanın orta gəlirli “ixrac

səbəti” ndə aşağı, orta və nisbətən yüksək gəlirli məhsullar var. Ancaq əsas problem ondan ibarətdir ki, Azərbaycanın “ixrac səbəti”ndə aparıcı yer tutan məhsullar əsas etibarilə elm və innovasiya tutumlu məhsullar deyil, xammal və yarımfabrikatlardır.

### 3. Azərbaycanın xarici ticarət sistemində mövcud iqtisadi asılılıqların ekonometrik qiymətləndirilməsinin nəticələri

Aşağıdakı cədvəldə 2000-2018 –ci illər üzrə Azərbaycan Respublikasının xarici ticarət sisteminin əsas göstəricilərinin zamana görə dəyişməsini ifadə edən məlumatlar əks olunmuşdur. (bax: cədvəl 3)

**Cədvəl 3.**

**Azərbaycan Respublikasının xarici ticarət sisteminin əsas göstəricilərinin zaman sıraları**

| İllər | İdxal (İDX mln ABŞ dol ilə) | Ümumi daxili məhsul (ÜDM mln ABŞ dol ilə) | İxrac (İX mln ABŞ dol ilə) | Daxili investisiyalar (DİN mln ABŞ dol ilə) | Xarici investisiyalar (XİN mln ABŞ dol ilə) |
|---|---|---|---|---|---|
| **2000** | 1172,1 | 5272,8 | 1745,2 | 514,4 | 927 |
| **2001** | 1431,1 | 5707,1 | 2314,2 | 470 | 1091,8 |
| **2002** | 1665,5 | 6235,9 | 2167,4 | 561,7 | 2234.9 |
| **2003** | 2626,2 | 7276 | 2590,4 | 955,3 | 3371 |
| **2004** | 3515,9 | 8680,4 | 3615,5 | 1347,3 | 4575,5 |
| **2005** | 4211,2 | 13238,7 | 4347,2 | 2225,3 | 4893,2 |
| **2006** | 5266,7 | 20983 | 6372,2 | 3247,6 | 5052,8 |
| **2007** | 5713,5 | 33050,3 | 6058,2 | 5391,8 | 6674,3 |
| **2008** | 7170 | 48852,5 | 47756 | 9374,6 | 6847,4 |
| **2009** | 6123,1 | 44297 | 14701,4 | 7564,9 | 5468,6 |
| **2010** | 6600 | 52909,3 | 21360,2 | 9343,6 | 8247,8 |
| **2011** | 9756 | 65951,6 | 26570,9 | 12915 | 8673,9 |
| **2012** | 9652,9 | 69683,9 | 23908 | 15463,8 | 10314 |
| **2013** | 10712,5 | 74161,4 | 23975,4 | 16799.1 | 10540,9 |
| **2014** | 9187,7 | 75234,7 | 21828,6 | 16209,8 | 11697,7 |
| **2015** | 9216,7 | 52996,8 | 12729,1 | 8828,1 | 10719,1 |
| **2016** | 8489,1 | 37862,8 | 13457,6 | 4066,9 | 10161,1 |
| **2017** | 8783,3 | 40867,9 | 15320 | 5092,8 | 9120,5 |
| **2018** | 11465 | 46939,6 | 19458,6 | 6985,2 | 8236,5 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanmışdır.*

Ekonometrik modelləşdirmə prosesində öyrənilən iqtisadi sistemin (bizim tədqiqatımızda xarici ticarət sisteminin) tədqiqata cəlb edilmiş xarakteristikaları izah olunan (asılı dəyişən) və izahedici (sərbəst dəyişən) parametrlər şəklində səciyyələndirilməli və asılı dəyişənin sərbəst dəyişənlərdən asılılığı kəmiyyətcə qiymətləndiril-

məlidir. Biz asılı dəyişən olaraq xarici ticarətin ixrac göstəricisini (İX və ya Y), sərbəst dəyişənlər olaraq isə idxal göstəricisini (İDX), ümumi daxili məhsulu (ÜDM), daxili investisiyaları (DİN) və xarici investisiyaları (XİN) götürəcəyik.

Ekonometrik tədqiqatlar 2 mərhələdə aparılmışdır. Birinci mərhələdə xarici ticarət sistemi üçün asılı dəyişən olaraq seçdiyimiz ixrac göstəricisinin (Y) hər bir sərbəst dəyişəndən asılılığının $Y = b_0 + b_1 x$ şəklində olan cüt reqressiyanın xətti modelləri qurularaq və onların bazasında göstəricilər arasındakı asılılıqların kəmiyyət xarakteristikaları müəyyən edilmişdir. Tədqiqatın ikinci mərhələsində isə ixracın bütün İDX, ÜDM,DİN, XİN ekzogen parametrlərdən (sərbəst dəyişənlərdən) birgə asılılığınıı əks etdirən çoxreqressiya modeli qurularaq və onun etibarlılıq səviyyəsi kəmiyyət baxımından qiymətləndirilmişdir.

Yuxarıda əks olunmuş statistikalara görə EViews proqram paketlərinin köməyi ilə alınmış əlaqə tənlikləri və onların xarakteristikaları aşağıdakı cədvəldə yerləşdirilmişdir.

**Cədvəl 4**

**Xarici ticarət sisteminin ixrac göstəricilərinin təsiredici faktorlarından asılılığının cüt reqressiya modelləri**

| **İzahedici faktorlar** | **Əlaqə tənlikləri** | **Determinasi-ya əmsalı** | **Korrelya-siya əmsalı** | **Darbin – Uotson statistikası** |
|---|---|---|---|---|
| İdxal($X_1$) | $Y=-1553,9+2,44X_1$ | $R^2=0,46$ | r=0,68 | DW=1,88 |
| ÜDM ($X_2$) | $Y=479,9+0,37X_2$ | $R^2=0,59$ | r=0,77 | DW=2,30 |
| Daxili investi-siyalar ($X_3$) | $Y=3551,3+1,59X_3$ | $R^2=0,55$ | r=0,74 | DW=2,04 |
| Xarici investisiya-lar ($X_4$) | $Y=-369,77+2,15X_4$ | $R^2=0,37$ | r=0,61 | DW=1,79 |

Cədvəl 4-də əks olunmuş statistik hesablamalara istinadən deyə bilərik ki, xarici investisiyalar istisna olmaqla, digər göstəricilərin ixraca göstərdiyi təsir kifayət qədər güclüdür. Belə ki, əgər ÜDM ixracın qiymətinin səpələnməsini yalnız 59% izah edirsə, idxal üzrə bu göstərici 46%-dən bir qədər çox, daxili investisiyalar üzrə 55%-ə yaxındır.

Beləliklə, cədvəl 4-də yerləşdirilmiş əlaqə tənliklərinin iqtisadi interpritasiyasına görə, ölkə üzrə idxalin bir milyon dollar məbləğində artması ixracı 2,44 mln dollar artırır. ÜDM üzrə bu artım 0,37 mln dollar, daxili investisiyalar üzrə 1,59 mln dollar, xarici

inlvestisiyalar üzrə isə 2,15 mln dollar təşkil edir.

$$\dot{I}X = -393,89 + 2,65\dot{I}DX + 0,63UDM + 2,92D\dot{I}N$$
$$P\ (0,88) \quad (0,00) \quad (0,00) \quad (0,00)$$

Apardığımız ekonometrik tədqiqatlar göstərir ki, xarici ticarət sistemində ixracın təsiredici faktorlardan asılılığını kəmiyyətcə ifadə edən çoxreqressiya modeli üçün Qaus-Markov şərtləri ödənir, model real iqtisadi şəraitə kifayət qədər adekvatdır və xarici ticarət üzrə optimal idarəetmə strategiyalarının qurulmasında müvəffəqiyyətlə istifadə oluna bilər. Bu modelin iqtisadi interpritasiyasına görə ölkə üzrə ÜDM-in 1 vahid artması ixracı 0,63 vahid, idxalın 1 vahid artması ixracı 2,65 vahid, daxili investisiyaların 1 vahid artması isə ixracı 2,92 vahid artırır.

**4. Azərbaycanın xarici ticarət dövriyyəsində idxalla ixracın struktur tərkibi ilə yanaşı ixracyönümlü məhsullar buraxılışının struktur tərkibi ilə idxal olunan məhsulların əvəzlənməsinin struktur tərkibi arasında balanslaşdırmanın yolları və üsullarına dair əsaslandırmalar**

Beynəlxalq bazarların tələblərinə cavab verən keyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsalı milli sənayedə qabaqcıl texnologiyaların və bütünlükdə ölkədə isə sosial yeniliklərin tətbiqini tələb edir. Milli sənayenin ixracyönümlü rəqabətdə davamlı qabaqcıl texnologiyalardan səmərəli istifadənin tapılması yolları beynəlxalq ticarət əlaqələrinə inteqrasiya olunmada mühüm rol oynaya bilir. Azərbaycanın milli müəssisələrinin innovasiya texnologiyaları ilə təmin olunması istehsalın iqtisadi potensialını artırır, həmin potensiallardan səmərəli istifadəni və əmək məhsuldarlığını yüksəldir. Bütün bunlar imkan verir ki, Azərbaycan qeyri-neft sənaye sahələrinin bir çox məhsulları üzrə rəqabət üstünlüyü əldə etsin.

Bu gün qeyri-neft sektorunun inkişafı şəraitində Azərbaycan Respublikasının xammal ixracatçısından hazır məhsulların ixracatçısına çevrilməsi daha məqsədəuyğundur. Təbii sərvətlərlə zəngin olan Azərbaycanın bu sərvətlərdən əldə etdiyi gəlirlərin qeyri neft sektorunun inkişafı üçün sərf olunması ölkənin beynəlxalq ticarət əlaqələrinə inteqrasiya olunmasına təkan verəcəkdir.

Ölkədə beynəlxalq ticarət strategiyasının əsasını idxal siyasəti təşkil edir ki, bunun düzgün səmərəli həyata keçirilməsi nəticəsində

ölkə öz tələbini idxal hesabına deyil, şəxsi istehsalı hesabına ödəyir ki, bu da həm daxili bazarın inkişaf etməsinə müsbət təsir göstərir həm də ölkənin idxaldan asılılığının qarşısını alır. Əlbəttə ki, bu siyasət bazar iqtisadiyyatı modelində inkişaf edən dünya ölkələrində daha düzgün həyata keçirilir. İdxal siyasətinin həyata keçirilməsi zamanı ən önəmli hal idxalın diversifikasiyasıdır. İdxal diversifikasiya olunduqca hər bir ölkə daxili istehsalını elmi-texniki tərəqqinin yeni modellərindən istifadə edərək artırır.

İdxalın əvəzlənməsi siyasəti ilə ixracyönümlü siyasətin ümumi cəhətləri reallaşdırılan zaman hər iki siyasətin həyata keçirilməsi prosesinə dair qəbul olunan qərarların ardıcıllığı da olur. Məsələn, ixracyönümlü siyasətin mahiyyətində ilkin cəhət ölkədə ixracyönümlü məhsullar buraxan sahələr, yarımsahələr və müəssisələrin inkişafı və bu ixracdan ölkənin əldə etdiyi gəlirlər hesabına ixraca xidmət edəcək sahələrın inkişafı dayanır. Diqqətlə fikir verdikdə idxalın əvəzlənməsi siyasətinin əsasında ilkin qərarlar kimi ölkənin daxili ehtiyaclarını ödəyən məhsulları və xidmətləri xarici ölkələrdən idxal etmək hesabına deyil, həmin məhsulları daha çox ölkə daxilində onların istehsal edə biləcək sahələri və yarımsahələri yaratmaqla həyata keçirilir.

Azərbaycan Respublikası özünün xarici ticarət dövriyyəsində idxalın əvəzlənməsi ilə ixracyönümlü siyasətinin ardıcıl olaraq uyğunlaşdırılmasını təmin edə bilən perspektiv strategiya yolu tutmuşdur. Əsas məsələ idxalın əvəzlənməsi ilə ixracyönümlü siyasətin elə balanslı inkişafını təmin etməyə çalışır ki, nəticədə ölkədə iqtisadi artım sürətlənsin.

### 5. Beynəlxalq ticarət standartlarının Azərbaycanın xarici ticarət əlaqələrinə tətbiqi istiqamətlərinin əsaslandırılması;

Beynəlxalq ticarət standartlarının Azərbaycanın xarici ticarət əlaqələrinə tətbiqinin təşkili səviyyəsinin yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər, o cümlədən milli istehsalın beynəlxalq rəqabətqabiliyyətinin artırılması, kadr islahatları, mütəxəssislərin ixtisas səviyyəsinin yüksəldilməsi, ticarət xidməti intizamının möhkəmləndirilməsi, gömrük nəzarəti rüsumlarının müasir tələblərə uyğunlaşdırılması, daha optimal tarif dərəcələrinin tətbiqi, idxal-ixrac əməliyyatlarının maddi-texniki bazasının yaxşılaşdırlması, daha yeni texniki nəzarət üsullarının tətbiqi beynəlxalq ticarət standartlarının

Azərbaycanın xarici ticarət dövriyyəsində tətbiqi miqyasının ilbəil genişləndirilməsində əhəmiyyətli rol oynayacaqdır.

Müasir dövrdə beynəlxalq ticarətdə baş verən əsaslı keyfiyyət dəyişiklikləri Azərbaycan iqtisadiyyatının, onun xarici ticarət əlaqələrinin beynəlxalq ticarətə inteqrasiya olunması yolunda çoxsaylı tələbləri və standart normaları qarşıya çıxararaq həmin standartlara uyğunlaşmanı zəruri etmişdir. Bunların nəticəsi olaraq dünyanın bütün ölkələri o cümlədən Azərbaycan üçün də eyni olan qanunlar formalaşaraq onların fəaliyyət və istifadə mexanizmi qlobal iqtisadi sistemin- Dünya iqtisadiyyatı sisteminin inkişaf prosesinin mərkəzində dayanır. Belə bir şəraitdə Azərbaycanın milli iqtisadi maraqları daxilində xarici ticarət əlaqələrinin düzgün təşkili, ölkənin xarici ticarətinin beynəlxalq ticarət standartlarına uyğunlaşdırılmasının təmin edilməsi çox vacib şərtlərdən biri hesab edilməlidir. Son dövrün dünya təcrübəsi və beynəlxalq ticarətin müasir problemlərinin sistemli həllinə əsaslanmaqla həyata keçirilən səmərəli beynəlxalq təcarət siyasəti nəticəsində ölkənin o cümlədən Azərbaycanın Dünya ticarət sistemində xüsusən Ümumdünya Ticarət Təşkilatında (ÜTT) fəal surətdə iştirak etmək imkanları yaranmışdır. Belə imkanlar bir tərəfdən Azərbaycanın daxili bazarının tələbatını dolğun şəkildə ödəməyə, xarici ticarət dövriyyəsinin strukturunu keyfiyyətcə yaxşılaşdırmağa, digər tərəfdən isə ölkənin Beynəlxalq Əmək Bölgüsündə (BƏB) malik olduğu üstünlüyü reallaşdırmağa əlverişli şərait yaradacaqdır.

Təsadüfi deyildir ki, beynəlxalq ticarət standartlarının və normalarının nəinki işlənilib hazırlanmasında və habelə onların real təcrübədə kompramis üsullarla həyata keçirməyə müntəzəm çalışan Ümumdünya Ticarət Təşkilatı (ÜTT) çox böyük və uğurlu nəticələr əldə etmiş və hal-hazırda da etməkdədir. Beynəlxalq ticarətə inteqrasiya olunmaq yolu ilə inamla irəliləyən Azərbaycan ÜTT-ə üzv olmaqla bütünlükdə qlobal iqtisadi sistemə daha çox inteqrasiya olunmaq imkanına malikdir. Son illərin təcrübəsi və apardığımız tədqiqatlar göstərir ki, Azərbaycanın ÜTT-ə üzv olması ölkənin regional və bütövlükdə beynəlxalq iqtisadi inteqrasiya proseslərinə qoşulmasını sürətləndirəcək, ixracyönümlü potensialının artımına şərait yaradacaq, ölkənin nəinki daxili bazarında və habelə beynəlxalq bazarlarda rəqabət qabiliyyətini gücləndirəcəkdir.

Dünya təcrübəsi göstərir ki, beynəlxalq ticarət standartlarına uyğunlaşmaq yalnız ÜTT-nin qərarlarına əməl etmək kifayət deyildir. Bu istiqamətdə ölkə daha çox şəffaf və səmərəli qanunlara malik olmalıdır. Təsadüfi deyildir ki, beynəlxalq ticarət standartları və ÜTT-n qərarları ilə bağlı tarixən formalaşmış Uruqvay Raundu prinsipləri və normaları digər bərabər şərtlər daxilində ümumi halda götürüldükdə ölkənin xarici və daxili ticarəti üçün olduqca faydalıdır. Çünki, həmin prinsip və normalara əməl edilməklə aparılan ticarət əməliyyatlarında yaranan xərclər azalır və ölkənin beynəlxalq ticarətdə rəqabət qabiliyyəti artır. Bu isə bizə bir mənalı olaraq belə deməyə imkan verir ki, Azərbaycanın ÜTT-ə üzv olması yolunda çox faydalı olan həmin prinsip və normalar diqqətlə nəzərə alınmalı və onlara əməl edilməlidir.[1]

Azərbaycanın ÜTT-ə üzv olması üçün nəzərdə tutulan çox mühüm hədəflərdən biri həmin beynəlxalq ticarət qurumunun ölkələr qarşısında qoyduğu prinsip və normalara uyğunlaşmaqdır. Bu mənada beynəlxalq iqtisadi inteqrasiya proseslərinə daxil olmaqla qlobal iqtisadi sistemə daha çox qovuşmaq yolunda beynəxalq ticarətin standartlarına uyğunlaşmağa Azərbaycanın milli iqtisadiyyatı çox ciddi strateji istiqamət götürmüşdür. Bu yolda ölkənin nəinki daxili bazarında iqtisadi rəqabəti gücləndirəcək və habelə milli iqtisadiyyatın ixrac potensialını artırmağa şərait yaradacaq, daha çox isə ölkənin milli iqtisadiyyatının sosial-iqtisadi inkişafının davamlılığına və sürətlənməsinə təsir edəcəkdir. Digər tərəfdən yanaşdıqda Azərbaycanın beynəlxalq ticarət standartlarına uyğunlaşması məsələsinə ölkənin çox vacib iqtisadi inkişaf amili kimi baxılmalıdır. Çünki, həmin uyğunlaşma Azərbaycanda milli sahibkarlığın inkişafına təkan verməklə yanaşı milli bazarın tələblərinin, daxili və xarici ticarət qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşmasını sürətləndirəcəkdir.

## 6. Xarici ticarət əlaqələrinin genişləndirilməsi müstəvisində ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətləri

Ölkənin iqtisadi təhlükəsizliyi onun iqtisadi inkişafının səviyyəsindən asılı olur. Hər bir ölkənin iqtisadi təhlükəsizliyi onun sosial-iqtisadi inkişafından asılıdır. İstər beynəlxalq ticarətdə istərsə də

[1] *Xasbulatov, R.İ. "Beynəlxalq iqtisadi münasibətlər " Bakı: – 2014, s.709*

daxili ticarətdə baş verən problemlərin vaxtında öz həllini tapması ölkənin iqtisadi inkişafına müsbət təsir göstərir. Əks halda, bu problemlər ölkənin davamlı inkişafı üçün təhlükə mənbəyinə çevrilə bilər. Dünya ölkələrinin təcrübəsinə baxdıqda belə nəticəyə gəlmək olar ki, iqtisadi təhlükəsizlik problemi hazırda ölkələrin xarici və daxili ticarət siyasətinin ayrılmaz hissəsinə çevrilmişdir.

Azərbaycan Respublikasının əsas iqtisadi təhlükə yaradan proseslərindən biri kimi tədiyyə balansının xammal hesabına ixracyönümlü olması, ərzaqla təminatın idxaldan asılı olma göstəricisinin yüksək olmasıdır. Çünki bunun nəticəsində milli iqtisadiyyat qeyri-sağlam inkişaf edir, sahibkarlığın inkişafında problemlər yaranır, ölkədə sosial geriləmə baş verir. Ümumiyyətlə, dünya ölkələrinin təcrübəsinə əsaslanaraq demək olar ki, daxili istehlakın 20-25%-dən çoxu idxal hesabına ödənərsə bu ölkədə təhlükəyə gətirib çıxara bilər. Məhz buna görə də ölkəmizin idxaldan asılılıq və özünü təminetmə göstəricilərini təhlil etmək zəruridir.




**Şəkil 2 Təmizlənmiş düyü, un, yarma və makaron məmulatları ilə özünütəminat səviyyəsi (faizlə)**

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanmışdır*

Təhlil dövründə Azərbaycanda bütün növlərdən olan unun idxalında nisbi azalma müşahidə olunmuş və özünütəminat səviyyəsi qənaətbəxş (2018-ci ildə 95,9 faiz) olmuşdur. Makaron məmulatları ilə özünütəminat səviyyəsində 2010-cu ildəki 72,7 faizdən 2018-ci ildə 28,7 faizə qədər enmişdir. Bunun əksinə olaraq, təmizlənmiş

düyü və yarma ilə təminat səviyyəsində artım qeydə alınmışdır. 2018-ci ildə özünütəminat göstəricisi yenidən aşağı düşmüşdür.

Ölkəmizin şəkər istehsalında özünütəminat səviyyəsinin yüksək olmasına baxmayaraq şəkər istehsalı yerli xammalın hesabına ödənilmir. Bu da əlavə xammalın idxalına görə xaricə valyuta axınına səbəb olur. Çay ilə özünütəminat səviyyəsini nəzərdən keçirsək, 2010-2018-ci illər ərzində bu göstəricinin aşağı düşməsini və bununla da idxaldan asılılılığın yüksəlməsini görə bilərik.




**Şəkil 3.Meyvə-tərəvəz şirələri və konservləri, şəkər, çay və duzla özünütəminat səviyyəsi (faizlə)**

***Mənbə:*** *Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırlanmışdır*

Azərbaycanda daxili istehsal hesabına bitki və kərə yağları ilə özünütəminat səviyyəsi qənaətbəxş səviyyədə olmasa da, onun yüksəldilməsi üçün potensial imkanlar mövcuddur.

Bildiyimiz kimi, gömrük tarifləri bütün ölkələrdə, həmçinin bizim Respublikada da tətbiq edilən və bütün mal qruplarını əhatə edən xarici ticarət münasibətlərinin iqtisadi tənzimləmə vasitəsidir. Çünki idxalın və eləcə də ixracın səmərəli şəkildə tənzimlənməsində gömrük tariflərinin rolu böyükdür.

İqtisadi Təhlükəsizliyin təmin edilməsinin digər bir üsulu qeyri-tarif tənzimlənməsidir. Bu zaman xarici ticarət kvotası tətbiq edilir ki, bu da idxalın və ya ixracın həcminə tətbiq edilən məhdudiyyətlərdir. İdxal rüsumundan fərqli olaraq kvotadan istifadə zamanı idxalın (ixracın) həcminin məhdudlaşdırılmasının daha dəqiq həyata keçirilməsinə şərait yaradır. Məsələn, idxal rüsumlarının artırılması ödəniş-

lərin ümumi məbləğinin artırılmasına səbəb ola bilər. Lakin bu artım idxalın həcminə təsir etməyə bilər, idxala kvotanın tətbiq edilməsi daxili bazarda həmin məhsula rəqabət olduqda müsbət səmərə verə bilər.

Müasir dövrdə Respublikamız bütün bunlara əsaslanaraq iqtisadi təhlükəsizliyi təmin etmək üçün tarif qiymətlərini yetərincə dəyişdirmişdir. Bu isə ölkə sahibkarlarının ölkə daxili istehsala milli istehsal malları, yəni milli brendlərin "Made in Azerbaijan" brendinin istehsalına yönləndirilməsinə əsas verir.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər dərc olunmuş aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**

1. J.B.Budaqova. "Daxili və beynəlxalq elektron ticarət təcrübəsi: reallıq və perspektivlər" // "İqtisadiyyatın davamlı inkişafı: problemlər, perspektivlər." Beynəlxalq Elmi Konfransın materialları, Sumqayıt. 2016. s. 537-539
2. J.B.Budaqova. "Dünya iqtisadiyyatının inkişafında xarici ticarətin rolu ETM" / "Təfəkkür Universiteti" elmi xəbər-lər jurnalı. № 1 (10) 2016. s.10-18
3. J.B.Budaqova. "Azərbaycanın xarici ticarət əlaqələrinin struktur dəyişikliyinin qiymətləndirilməsi" / ETM "Təfəkkür Universiteti" elmi xəbər-lər jurnalı. № 2 (11) 2016. s. 50-57
4. J.B.Budaqova. "Azərbaycan Respublikasının beynəlxalq ticarət əlaqələrinə inteqrasiya olunması yolları" / AMEA İqtisadiyyat İnstitutu Elmi Əsərlər. 2016 (6). s. 106-112
5. Ж.Б.Будагова ."Международная торговля Азербайджана на рынке продовольственных товаров" / Конкурентоспособность в глобальном мире: экономика, наука, технологии. № 6. Ч. 5. Москва 2017. с.10-15.
6. Ж.Б.Будагова. "Структурные изменения в области международной торговли и тенденции её развития" // Международный научный журнал «интернаука». XXI международная научно-практическая конференция: «Актуальные проблемы современной науки». «29» июня 2017. с. 90-97
7. J.B.Budaqova. "Beynəlxalq ticarətin müasir problemləri və Azərbaycanın xarici ticarət siyasəti" / Azərbaycan Respublikası Kənd Təsər-rüfatı Nazirliyi. Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi Əsərləri. Bakı: 2017. s. 28-34

8. J.B.Budaqova. “Beynəlxalq ticarətin müasir problemlərinin həllinə meto-doloji yanaşma” / AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2017 (yanvar-fevral). s. 51-55

9. J.B.Budaqova. “Beynəlxalq ticarət əlaqələrində Azərbaycanın iştirakının mövcud vəziyyətinin təhlili” // ETM “Təfəkkür Universiteti” elmi xəbərlər jurnalı. “Müasir Dövrdə Elm və Təhsilin aktual problemləri” Respublika Elmi-Praktik Konfransı.2017. № 2(14)s 11-18

10. J.B.Budaqova. “Beynəlxalq ticarət standartlarının Azərbaycanın xarici ticarət əlaqələrinə tətbiqinin müasir istiqamətləri” / Azərittifaq” Azərbaycan Kooperasiya Universiteti.Kooperasiya elmi-praktiki jurnal. 2018. № 3(50) s 217-222

11. J.B.Dadaşova. “Beynəlxalq ticarət əlaqələrində qiymətin formalaşması və tənzimlənməsi problemləri” // ULUSLARARASI 30 AGUSTOS BİLİMSEL ARAŞDIRMALAR . İZMİR. 28-31 avqust 2019. 1- ci cild. c. 320-32

12. J.B.Dadaşova” Azərbaycan və Türkiyə arasında ticarət əlaqələri: müasir vəziyyət və perspektivlər” // “Dövlət atributlarından Konstitutsiyaya" adlı respublika elmi-praktiki konfransı. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi xidmətinin Heydər Əliyev adına Akademiyası.Bakı. 12 noyabr. 2019 S 261-264

13.J.B.Dadaşova “Müasir dövrdə beynəlxalq ticarətin inkişaf perspektivləri” // “Fevral məruzələri - 2020: Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı" V beynəlxalq elmi-praktiki gənclər konfransı. "Azərbaycan Hava Yolları" QSC Milli Aviasiya Akademiyası. 3-5 fevral 2020. S 167-169

14. J.B.Dadaşova. “Существующие экономические зависимости во внешнеторговых отношениях Азербайджана и их эконометрическое моделирование” / Журнал «Экономика и предпринимательство». Москва 2020. № 9 с 513-517

15. J.B.Dadaşova. “Nəqliyyatın beynəlxalq ticarətin inkişafında rolu” // “İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər” Beynəlxalq Elmi Konfrans Sumqayıt Dövlət Universiteti. 08-09 iyul. 2020 s 44-47

Dissertasiyanın müdafiəsi “25” iyun 2021-ci il saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya və avtoreferatın elektron versiyaları ilə Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “25” may 2021-ci ildə göndərilmişdir.

Çapa imzalanıb: “19” may 2021.
Kağızın formatı: 60x84 $_{1/16}$.
Sifariş 05/25  Tiraj: 100.
Həcmi 1 ç.v. (40918 işarə)

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün:* capevi@internet.ru */ (+99455) 201-2809*